**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ EKZİSTENSİONAL CÜMLƏLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5704.01 – "Dil nəzəriyyəsi"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Şəlalə Arif qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Bahar Cumay qızı Cəfərova**

filologiya elmləri doktoru, professor
**Gülçöhrə Babaəli qızı Alıyeva**

filologiya elmləri üzrə fəlsəfə doktoru
**Aynurə Nəriman qızı Qurbanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: Filologiya elmləri doktoru, professor
**Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Gülsüm İsrafil qızı Hüseynova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ekzistensional cümlələr həm yazılı, həm də şifahi nitqdə geniş şəkildə işlənir. Danışan qarşısına qoyduğu məqsəddən asılı olaraq hər hansı bir əşyanın müəyyən bir yerdə mövcudluğu və yaxud qeyri-mövcudluğu haqqında məlumat verir. İstər sintaktik quruluşuna, istərsə də semantikasına görə ekzistensional cümlələr digər cümlə tiplərindən əsaslı surətdə fərqlənir. İlk növbədə onların komponentləri arasında mövcud olan məntiqi-semantik əlaqələr diqqəti cəlb edir. Ekzistensional cümlələr hər hansı bir əşyanın müəyyən məkanda (sözün geniş mənasında) varlığını və yaxud yoxluğunu bildirmək məqsədilə işlədilir. Mövcudluq konkret zaman və məkanda baş verir. Öz ifadəsinə görə ekzistensional cümlələr feili, feilsiz və adlıq cümlə formasında olur. Feilsiz mövcudluq cümlələri əsasən rus dilinə xasdır. İndiki zamanda bir sıra hallarda *"ecmь"* feili işlədilmir.

Mövzunun aktuallığı hər şeydən əvvəl mövcudluq cümlələrinin istənilən dilin sintaktik sistemində xüsusi bir quruluşa və semantikaya malik olmasından irəli gəlir. Mövcudluq semantikası digər cümlə tiplərinin presuppozisiyasını təşkil edir. Mövcudluq cümlələri həmçinin dərin məntiqi-fəlsəfi biliklərə əsaslanır. Mövcudluq dünyada mövcud olan hər şeydir. O, həmçinin zaman və məkan anlayışları ilə də bilavasitə əlaqədardır. Bir qayda olaraq mövcudluq cümlələri nəyinsə varlığını və yaxud yoxluğunu ifadə edir. Eyni zamanda mövcudluq cümlələri dünyanın dərk olunmasında, dünyanın mənzərəsinin qavranılmasında, həmçinin mənsub olduğu xalqın adət-ənənələrinin əks etdirilməsində mühüm rol oynayır.

Onu da nəzərə almaq lazımdır ki, mövcudluq bildirən cümlələrin tədqiqinə praqmatik baxımdan yanaşma nəzəri və praktik əhəmiyyət kəsb edir.

Dil faktlarının təhlili göstərir ki, mövcudluq cümlələri geniş mətnyaratma imkanlarına malikdir. Bu baxımdan da tədqiq ediləcək mövzu aktualdır.

Biz belə hesab edirik ki, mövcudluq bildirən cümlələrin ümumi dilçilik baxımından ətraflı linqvistik təhlilinin aparılması üçün müxtəlif qrammatik quruluşa malik olan ingilis, Azərbaycan və rus

dillərinin materiallarından istifadə etmək səmərəli nəticə verər.

Ekzistensional cümlələr və onların mahiyyəti haqqında ümumi dilçilikdə xeyli məlumat verilir. Bu baxımdan O.Yespersenin [1], C.Layonzun[2], Ş.Ballinin[3], E.Benvenistin[4] əsərlərini göstərmək olar. O.Yespersen hər hansı bir əşyanın müəyyən bir məkanda mövcudluğunu, yaxud yoxluğunu göstərən cümlələri "existential sentences" (mövcudluq cümlələri) adlandırır. O, belə qənaətə gəlir ki, nəzərəçarpan xüsusiyyətlərə malik olan həmin tip cümlələr bir çox dillərə xasdır. Ekzistensional cümlələr əsasən *"there is"* (ingilis dilində), *"es gibt"* (alman dilində), *"der er"* (Danimarka dilində), *"dar är"* (İsveç dilində) və s. bu kimi birləşmələrlə başlayan cümlə tipləri əsasında tədqiq edilir. Bu baxımdan S.P.Anoxinanın [5] doktorluq dissertasiyasını qeyd etmək yerinə düşərdi. İngilis dilçiliyində ekzistensional cümlələr bir qayda olaraq *"There is (are)"* tipli cümlələr fonunda araşdırılır. Bu baxımdan V.D.Berlovskayanın[6], T.V.Vorontsovanın[7], R.S.Aripşevanın[8] və s. bu kimi dilçilərin adını çəkmək olar.

Keçmiş sovetlər ittifaqında ekzistensional cümlələrin tədqiq

---

[1] Есперсен, О. Философия грамматики / Перевод с английского В.В.Пассека и С.П.Сафроновой. Изд-во Иностранной литературы. – Москва: – 1958. – 404 с.

[2] Лайонз, Дж. Экзистенциальные, локативные и поссессивные конструкции / В кн.: Введение в теоретическую лингвистику. Перевод с английского языка. – Москва: "Прогресс", – 1978. – с.411-419.

[3] Балли, Ш. Общая лингвистика и вопросы французского языка / Перевод с третьего французского издания Е.В. и Т.В.Вентцель. Изв-во иностранной литературы. – Москва: – 1955. – 416 с.

[4] Бенвенист, Э. Общая лингвистика / Э.Бенвенист. Перевод с французского. – Москва: Изд-во "Прогресс", – 1974. – 446 с.

[5] Анохина, С.П. Бытийные и поссессивные предложения в германских языках (структурно-семантический и фукнционально-прагматический аспект): / Автореферат дисс. доктора филол.наук. / Санкт-Петербург: – 1995. – 44 с.

[6] Берловская, В.Д. Предложения со служебным "there" в современном английском языке: / Автореферат дисс. канд. филол. наук. / – Ленинград, 1967. – 18 с.

[7] Воронцова, Т.В. Семантико-синтаксическая организация бытийного предложения: / Автореферат дисс.канд.филол. наук. / – Ленинград, 1981. –18 с.

[8] Арипшева, Р.С. Конструкция "There is" и коррелирующие синтаксические модели: / Автореферат дисс. канд.филол. наук. / – Москва: 1983. – 18 с.

olunmasında O.N.Seliverstova[9] və N.D.Arutyunovanın[10] əsərlərini xüsusilə qeyd etmək istərdik. Mübaliğəsiz qeyd etmək istərdik ki, keçən əsrin 80-ci illərindən başlayaraq əksər tədqiqatlarda nəzəri mənbə kimi qeyd edilən dilçilərin fikirləri götürülür. Tədricən bu sahəyə dair maraq artır və müxtəlifsistemli dillərin materialları əsasında araşdırmalar aparılır. Azərbaycan dilçiliyində ekzistensional cümlələr haqqında ilk olaraq O.İ.Musayev məlumat verir. O.İ.Musayev öz tədqiqatında *"There is a book on the table"* tipli ekzistensional cümlələrdə inversiya hadisəsinin baş verib-verməməsindən danışır. O, belə qənaətə gəlir ki, həmin cümlələrdə inversiya hadisəsi baş vermir. Həmin cümlələr xüsusi quruluşa malik olan cümlə tipləridir[11].

Q.Ş.Kazımov da Azərbaycan dilində ekzistensional cümlə haqqında qısa və ötəri məlumat verir[12]. Ekzistensional cümlə haqqında B.B.İsmayılovun fransız dili materialı əsasında verdiyi məlumat da müəyyən əhəmiyyət kəsb edir[13]. Bütövlükdə götürüldükdə ingilis və rus dilləri ilə müqayisədə Azərbaycan dilində ekzistensional cümlələrə xas olan xüsusiyyətlər ətraflı şəkildə tədqiqata cəlb edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Mövcudluq, mənsubluq və lokallaşma anlayışlarını özündə əks etdirən predikativ vahidlər var. Həmin predikativ vahidlər hər bir dilin sistemində xüsusi qrup kimi fəaliyyət göstərir. Sintaktik səviyyədə həmin feillər xüsusi quruluşa

---

[9] Селиверстова, О.Н. Компонентный анализ многозначных слов. На материале некоторых русских глаголов / О.Н.Селиверстова. – Москва: "Наука", – 1975. – 240 с.; Селиверстова, О.Н. Экзистенциальность и посессивность в языке и речи: / Автореферат дисс. доктора филол. наук. / – Москва, 1982. – 45 с.

[10] Арутюнова, Н.Д. Предложение и его смысл. Логико-семантические проблемы / Н.Д.Арутюнова. – Москва: Изд-во "Наука" – 1976. – 382 с.; Арутюнова, Н.Д. Номинация и текст / – В кн.: Языковая номинация. Выди наименований. – Москва: – Изд-во "Наука", – 1977. – с.304-357.

[11] Musayev, O.İ. İngilis və Azərbaycan dili cümlələrində sözlərin sırası / O.İ.Musayev. – Bakı: Azərtədrisnəşr, – 1960. – 83 s.

[12] Kazımov, Q.Ş. Seçilmiş əsərləri: [10 cilddə]. / Q.Ş.Kazımov. – Bakı: "Nurlan", – IX c. – 2010. – 544 s.

[13] İsmayılov, B.B. Fransız dilinin aktual sintaksisi və onun tədrisi problemləri / B.B.İsmayılov. – Bakı: "Nurlan", – 2008. – 438 s.

malik olan ayrı-ayrı cümlə modellərinin formalaşmasında mühüm rol oynayır. Tədqiq edilən dillərdə müvafiq olaraq leksik-semantik qrupların dominantı kimi əsasən *"to be", "to have", "var"*, *"ecmь", "имeть"* predikatları çıxış edir. Ekzistensional cümlələrin əsas komponentləri olan lokallaşma, mənsubluq, mövcudluq kimi semantik kateqoriyalar tədqiqatın obyektini təşkil edir. Bu semantik kateqoriyalar dialektik vəhdətdə biri digərini tamamlayır. Onları bir-birindən təcrid olunmuş şəkildə təsəvvür etmək qeyri-mümkündür. Bu komponentləri özündə birləşdirən cümlələrin struktur-semantik və funksional baxımdan öyrənilməsi bilavasitə tədqiqatın predmetini müəyyənləşdirir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ingilis, Azərbaycan və rus dillərində ekzistensional cümlələrin struktur, semantik və funksional imkanlarını araşdırmaqdır. Qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün aşağıdakı məsələlərə nəzər salmalıyıq:

– ekzistensional cümlələrin statusunu müəyyənləşdirmək;

– ekzistensional cümlələrdə mövcudluq bildirən feillər və onların işlənməsi;

– ekzistensional cümlələrin struktur xüsusiyyətləri;

– ekzistensional cümlələrin semantik xüsusiyyətlər;

– nominasiya və mətnin formalaşması;

– mətnin formalaşmasında praqmatik faktorların rolu;

– mətn və ekzistensional cümlələrin qarşılıqlı əlaqəsi;

– ekzistensional cümlələrin anaforik funksiyası.

**Tədqiqat metodları.** Tədqiqatda funksional prinsipə əsaslanan mətndaxili təhlil, semantik-sintaktik təhlil, müqayisəli tutuşdurma və transformasiya metodlarından, həmçinin mənadan onu ifadə edən formaya əsaslanan onomasioloji metodundan istifadə edilir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Bizi əhatə edən canlı və cansız varlıqlar şüurumuzdan asılı olmayaraq öz mövcudluğunu bu və ya digər şəkildə saxlayır. Hər hansı bir əşyanın zaman və məkan kəsiyində mövcudluğu müəyyən cümlə modelində öz təzahürünü tapır.

– Ekzistensional cümlələrin formalaşmasında xüsusi predikatlar mühüm rol oynayır.

– Ekzistensional cümlələr nəinki ayrı-ayrı dillərdə, hətta bir

dildə belə müxtəlif struktura malik ola bilər.

– Ekzistensional cümlələrin semantikası onları təşkil edən komponentlərin qarşılıqlı əlaqəsi sayəsində müəyyənləşir.

– Ekzistensional cümlələr mətnin formalaşmasında çox işlənir. Mətnin formalaşması müxtəlif praqmatik faktorlara əsaslanır.

– Ekzistensional cümlələr mətndə anaforik və kataforik əlaqələrin formalaşmasında mühüm rol oynayır.

**Tədqiqatın elmi yeniliyi.** Ekzistensional cümlələrin struktur, semantik və funksional imkanları üç müxtəlif qrammatik quruluşa malik olan dillərin materialları əsasında tədqiqata cəlb edilir. Biz belə hesab edirik ki, məsələyə bu baxımdan yanaşma universal xarakter daşıyan ekzistensional cümlələrin mahiyyətinin daha dərindən açıqlanmasına böyük imkanlar yaradır. Onu da əlavə etmək istərdik ki, Azərbaycan dilçiliyində ekzistensional cümlələr ayrıca tədqiqat obyekti olmamışdır. Bütövlükdə ekzistensional cümlələrin tədqiqinə mətn dilçiliyi baxımından yanaşılır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Ekzistensional cümlələrin komponentləri arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi, praqmatik-koqnitiv baxımdan araşdırılması da müəyyən nəzəri əhəmiyyət kəsb edir. Bütövlükdə götürüldükdə ekzistensional cümlələrin tədqiqi bilavasitə mətn dilçiliyinin bu və ya digər aspektlərinin daha dərindən öyrənilməsi üçün geniş imkanlar açır.

Tədqiqatın nəticələri praktiki baxımından da müəyyən əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl onu qeyd etmək istərdik ki müxtəlif quruluşa malik olan üç dil materialları əsasında aparılan tədqiqatın nəticələrindən tədris prosesində istifadə edilə bilər. Eyni zamanda tədqiqatın materiallarından xüsusi seçmə kurslarında istifadə etmək olar. Əldə edilən nəticələr tipoloji dilçilik üçün də kifayət qədər material verir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları Respublikanın müxtəlif universitetlərinin elmi jurnallarında və eləcə də xarici ölkələrdə nəşr edilən toplularda dərc edilmiş məqalə və tezislərdə öz əksini tapmışdır. Tədqiqatın materiallarından buraxılış işi və magistr dissertasiyalarının yazılmasında istifadə etmək olar. Eyni zamanda tədqiqatın materialları dərslik və dərs vəsaitlərinin yazılmasında da faydalı ola bilər. Xüsusən, mətn dilçiliyinə, sintaktik

semantikaya, sadə cümlənin növlərinə dair yazılan əsərlərdə dissertasiyanın materiallarından yararlanmaq olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 5 səhifə, 8999 işarə, I fəsil 46 səhifə, 78994 işarə, II fəsil 30 səhifə, 51465 işarə, III fəsil 64 səhifə, 114025 işarə, Nəticə hissəsi 3 səhifə, 5739 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 259222 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın ***Giriş*** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır, tədqiqat işinin aprobasiyası və quruluşu haqqında elmi məlumat təqdim edilir.

**“Ekzistensional cümlələrin dil sistemində yeri”** adlanan **birinci fəsil** iki paraqrafdan ibarətdir. Birinci paraqrafda ümumiyyətlə, dilçilikdə *ekzistensional cümlələrin mahiyyəti və onların tədqiqi tarixinə* nəzər salınır. Bizi əhatə edən canlı və cansız varlıqlar hər bir halda müəyyən zaman və məkan daxilində öz mövcudluğunu saxlayır. Əks halda həmin əşyanın mövcudluğundan danışmaq qeyri-mümkündür. Dil əşyalar və hadisələr arasındakı qanunauyğun əlaqələrin qarşılıqlı şəkildə təzahürünün inikası kimi çıxış edir. Dil real gerçəkliyin ifadəçisi kimi mühüm və çox önəmli bir funksiyanı yerinə yetirir. Belə funksiyalardan biri də əşya və hadisələrin müəyyən zaman və məkan kəsiyində mövcudluğunu göstərməkdən ibarətdir. Həmin mövcudluğun dildə göstəricisi kimi hər bir dilin qrammatik quruluşuna müvafiq olaraq xüsusi cümlə növü işlədilir. Bu qəbildən olan cümlələr dilçilikdə “mövcudluq” bildirən cümlələr kimi təqdim edilir.

Hələ vaxtilə O.Yespersen qeyd edirdi ki, *A tailor was once living in a small house (Bir dəfə bir dərzi balaca bir evdə yaşayırdı)* cümləsi bir qayda olaraq *Once upon a time there was a tailor (Biri var idi biri yox bir dərzi var idi)* şəklində işlənir. O.Yespersen hər hansı bir əşyanın müəyyən bir məkanda mövcudluğunu, yaxud yoxluğunu göstərən cümlələri "existential sentences" (mövcudluq cümlələri) adlandırır. O, bir çox dil materiallarına müraciət edərək həmin cümlələrin universal xarakter daşıdığı qənaətinə gəlir.[14] Ş.Balli də ekzistensional cümlələr haqqında dəyərli fikirlər söyləmişdir. Ona görə mövcudolmanın ifadə tarixi bilavasitə məkan anlayışı ilə bağlıdır: *il y a un Dien (Allah var); les medecins sont la pour les malades (Burada həkimlər xəstələr üçün mövcuddur).*[15]

C.Layonz *There are lions in Africa* cümləsini verərək qeyd edir ki, həmin cümlədə asanlıqla *to be* feilini *to exist* feili ilə əvəz etmək olar. Bu prinsipdən çıxış edərək C.Layonz belə qənaətə gəlir ki, həmin cümlələrdə sözün əsl mənasında söhbət ekzistensional cümlələrdən gedir.[16]

Ekzistensional cümlələr haqqında V.Q.Admoni [17], S.D.Katsnelson [18], N.D.Arutyunova [19], O.N.Seliverstova [20], S.P.Anoxina [21] və digər dilçilər məsələyə müxtəlif aspektlərdən

---

[14] Есперсен, О. Философия грамматики / Перевод с английского В.В.Пассека и С.П.Сафроновой. – Москва: Изд-во Иностранной литературы, – 1958. –с.175-177.

[15] Балли, Ш. Общая лингвистика и впросы французского языка / Перевод с третьего французского издания Е.В. и Т.В.Вентцель. – Москва: Изв-во иностранной литературы. – 1955. – с.90.

[16] Лайонз, Дж. Экзистенциальные, локативные и посессивные конструкции / В кн.: Введение в теоретическую лингвистику. Перевод с английского языка. – Москва: "Прогресс", – 1978. – с.413.

[17] Адмони, В.Д. Типология предложения // – В кн.: Исследования по общей теории грамматики. – Москва: Изд-во "Наука", – 1968. – с.257-259.

[18] Кацнельсон, С.Д. Типология языка и речевое мышление / С.Д.Кацнельсон, – Ленинград: Изд-во "Наука" Ленинградское отделение, – 1972. – с.66.

[19] Арутюнова, Н.Д. Предложение и его смысл. Логико-семантические проблемы / Н.Д.Арутюнова. – Москва: Изд-во "Наука" – 1976. – с.229-284.

[20] Селиверстова, О.Н. Экзистенциальность и посессивность в языке и речи: / Автореф. дисс. доктора филол. наук. / – Москва, 1982. – с.40.

[21] Анохина, С.П. Бытийные и посессивные предложения в германских языках (структурно-семантический и фукнционально-прагматический аспект): / Автореферат дисс. доктора филол. наук. / – Санкт-Петербург, 1995. – с.13.

yanaşaraq müəyyən fikir söyləmişlər.

Azərbaycan dilçiliyində ilk olaraq O.İ.Musayev ingilis və Azərbaycan dili ekzistensional cümlələrində söz sırasına dair tədqiqat aparmışdır. O, belə qənaətə gəlir ki, ekzistensional cümlələr nəqli cümlələrin digər növlərindən öz xüsusiyyətlərinə görə fərqlənir.[22]

B.B.İsmayılovun fransız dilində ekzistensional cümlələr haqqında söylədiyi fikirlər digər dillər üçün də müəyyən əhəmiyyət kəsb edir. Ona görə ekzistensional cümlələr *"bu yerdə nə var, nə hadisə baş verib, nə olub və s."* kimi suallara cavab verir. Bu cür cümlələrdə predikatın təsdiqi və ya inkarı hadisəyə ekzistensional məna verir və daha çox nəzər-diqqəti cəlb edir.[23]

Azərbaycan dilçiliyində ekzistensional cümlələr bizim başa düşdüyümüz şəkildə yox, ancaq adlıq cümlə şəklində verilir: *Sağ tərəfdə böyük və əzəmətli bir öküz heykəli. Rəf üstündə istəkan, nəlbəki, qəndqabı, piyalə* və s. qeyri. [24] Q.Kazımov da həmin qəbildən olan cümlələri adlıq cümlə bölməsində verir. *Çöldə bir meydança. Bir tərəfdə dəyə. Dəyənin qabağında çay.* [25] Təqdim edilən nümunələrdə biz asanlıqla *var* sözü işlədə bilərik. Lakin həmin cümlələr adlıq cümlə kimi verildiyi üçün onlarda *var* sözü işlənmir.

Müasir ingilis dilində ekzistensional cümlələr öz quruluşuna görə digər cümlə tiplərindən fərqlənir. Bu da təsadüfi deyil. *"There is a dog in the yard"* tipli cümlələr qədim ingilis dilində formalaşmış və bu günə qədər öz spesifikliyini saxlayır[26].

---

[22] Мусаев, О.И. Порядок слов в предложениях английского и азербайджанского языков: / Автореф.дисс. канд.филол.наук / – Баку, 1961. – с.11.

[23] İsmayılov, B.B. Fransız dilinin aktual sintaksisi və onun tədrisi problemləri / B.B.İsmayılov. – Bakı: "Nurlan", – 2008. – s.234.

[24] Abdullayev, Ə.Z. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə / Ə.Z.Abdullayev, Y.M.Seyidov, A.Q.Həsənov [və b.]. – Bakı: Maarif, – 1972. – s.251-252.

[25] Veysəlli, F.Y. Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. / F.Y.Veysəlli, Q.Ş.Kazımov, İ.Ş.Kazımov, A.Y.Məmmədov [və b.]. – Bakı: "Prestige çap evi", – c.III. – 2014. – s.334.

[26] Полтавцева, Е.А. Предпосылки возникновения конструкции "There is" в древнеанглийском языке // – Ленинградский государственный педагогический институт им. А.И.Герцена, Ученые Записки. Факультет английского языка, – 1958. Том 157, – с.30.

Azərbaycan və rus dillərində isə ekzistensional cümlələr ingilis dilindən fərqli olaraq bir çox hallarda yer və zaman zərflikləri ilə başlayır: *"Во дворе собака". "Həyətdə it var".*

Fəslin ikinci paraqrafında *ekzistensional cümlələrin formalaşmasında iştirak edən mövcudluq bildirən feillərdən* danışılır.

Ekzistensional cümlələrdə mövcudluq bildirən hansı feillərin işlənməsi həmişə tədqiqatçıların diqqətini cəlb etmişdir. Müxtəlifsistemli dillərin materialları əsasında aparılan tədqiqatlar göstərir ki, əksər dillərdə bu və ya digər şəkildə *"olmaq", "var" (to be, to have, быть, есть, иметь)* feillərinin işlənməsi üstünlük təşkil edir. Həmin feillər haqqında tədqiqatlar aparılmasına baxmayaraq,[27] Azərbaycan dilçiliyində *"olmaq"* və *"var"* feillərinin mövcudluq bildirmə mənalarının araşdırılması bir qədər diqqətdən kənarda qalmışdır. Burada bizim əsas məqsədimiz həmin feillərin ekzistensional cümlələrin formalaşmasında rolunu açıqlamaqdan ibarətdir.

*Olmaq* feili haqqında Q.Kazımovun söylədiyi fikir bizim tədqiqatımız üçün çox önəmlidir. O, konkret olaraq *olmaq* feilinin müstəqil feil kimi işləndikdə iki məna daşıdığını söyləyir: a) *Ol* feili yaşamaq mənasında işlənir. *Onlar yaxınlıqdakı meşənin ətəyində olurlar*; b) *Ol* feili bir şeyin mövcud olduğunu bildirir.[28]

*Olmaq* feilinin aşağıdakı mənaları var:

I. *Olmaq* əsas feil kimi: *Sən ol mənim bacım, mən də olum sənin qardaşın.*[29]

II. *Olmaq* feili hər hansı bir əşyanın vəziyyətinin dəyişdiyini

---

[27] Бенвенист, Э. Общая лингвистика / Перевод с французского. – Москва Изд-во "Прогресс", – 1974; Кузнецов, А.М. Глагол "to be" и его лексико-грамматические эквиваленты в современном английском языке / – В кн.: Категории бытия и обладания в языке. – Москва: Изд-во "Наука", – 1977; Фромм, Э. Иметь или быть. 2-е дополненное издание. Перевод с английского / Э.Фромм. – Москва: "Прогресс", – 1990; Янко, Т.Е. Бытование и обладание: конструкции с глаголом "быть" / В кн.: Логический анализ языка: Языки пространств. – Москва: – 2000; Слово и грамматические законы языка. Глагол / Русские бытийные глаголы и их субъекты. – Москва: "Наука", – 1989.

[28] Kazımov, Q.Ş. Seçilmiş əsərləri: [on cilddə]. / Q.Ş.Kazımov. – Bakı, "Nurlan", – IX c. – 2010. – s.169.

[29] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, "Şərq-Qərb", – I c. – 2005. – s.28

bildirir: *Bir də gördü üç göyərçin gəlib süfrənin qırağına, donların çıxarıb üç qız oldular.*[30]

III. *Olmaq* feili hər hansı bir hərəkətin baş tutduğunu göstərir: *Vali bir dəstə hökumət məmurları ilə orada hazır oldu.*[31]

IV. *Olmaq* feili hər hansı bir hərəkətin baş verdiyini göstərir: *Avtomobil onları sürətlə apararkən birdən durdu. Hər kəs bir-birinin üzünə baxdı. – Nə oldu? – deyə soruşdu.*[32]

Təqdim edilən nümunələrdə *olmaq* feili hər hansı bir hadisənin baş verdiyini bildirir.

V. *Olmaq* feili bir çox birləşmələrlə işlənərək *malik olmaq* mənasında işlənir: *Bir neçə aydan, gündən sonra arvadın bir oğlu oldu.* [33]

VI. *Olmaq* feili müxtəlif məna daşıyan sözlərlə birləşərək nəyinsə üzə çıxmasını, peyda olmasını bildirir və yaxud yox olmasını göstərir: *1. Burada bir əjdaha peyda olubdur, suyun başını kəsib, kimsəyi su aparmağa qoymayır.*[34] *2. Bir gün bəy yox oldu.*[35]

İndi isə *var* sözünün ifadə etdiyi mənalara nəzər salaq. Bu feilin iki mənası var: a) *var* sözü nəyinsə haradasa mövcudluğunu göstərir. *There is a boy in the room. – Otaqda bir oğlan var.* b) *var* ikinci mənada həm *malik olmaq,* həm də *mövcud olmaq* mənasında işlədilir. *Mənim bir qardaşım var. – I have a brother. Marsda həyat varmı?*

İlk baxışdan sadə görünməsinə baxmayaraq *var* sözünün ifadə etdiyi məna variantları çox mürəkkəbdir. Məsələyə müəyyən dərəcədə aydınlıq gətirmək üçün Q.Y.Yankonun “Бытование и овладение: конструкции с глаголом быть” (Mövcud olma və sahib olma: *olmaq* feili ilə işlənən konstruksiyalar) adlı məqaləsində qoyulan məsələlərdən çıxış etmək yerinə düşərdi. *Var* sözü ilə *есть*

---

[30] Yenə orada, – s.41

[31] Çəmənzəminli, Y.V. Əsərləri: [Üç cilddə]. / Y.V.Çəmənzəminli. – Bakı: – “Avrasiya press”, – I c. – 2005. – s.291.

[32] Yenə orada, – s.282.

[33] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, “Şərq-Qərb”, – I c. – 2005. – s.160.

[34] Yenə orada, – s.113.

[35] Çəmənzəminli, Y.V. Əsərləri: [Üç cilddə]. / Y.V.Çəmənzəminli. – Bakı: – “Avrasiya press”, – I c. – 2005. – s.268.

sözünün mənaları üst-üstə düşür.[36]

1. Utilitar *есть – var*. Utilitar *var* dedikdə ilk növbədə kiminsə nəyəsə malik olması, sahib olması nəzərdə tutulur. *Onun çoxlu pulu var.*

2. Anatomik *var*. *Onun ağ saçları var. Onun göy gözləri var.*

3. Tibbi *var*. *Var* sözünün işlənməsi bilavasitə insanlarda baş verən xəstəliklərlə əlaqədardır. *O, öskürür. Onun soyuq dəyməsi var. Deyəsən onun hərarəti var.*

4. Giriş cümlədə işlənən *var*. *"Var"* sözü mətnin başlanğıc cümləsi kimi çıxış edir: *Bu çobanın bir tulası var. Nə qədər eləyirəm, tulanın qorxusundan heç bir iş görə bilmirəm.*[37]

5. Polis leksikonunda işlənən *var*. *Onun sağ gözünün altında dərin çapıq var. Cinayətkarın ağ saçları var.*

6. Əşyanın mənbəyini göstərən var. *Göyçayda çoxlu nar növləri var. Əgər İsveçrədə kənddə kenquru gəzirsə, onda yaxınlıqda heyvanxana var.*

7. Nəyinsə bir tərkibdə olduğunu göstərən var. *Salatda çoxlu mayonez var.*

Birinci fəsildə əldə olunan müddəalar müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır.[38]

**"Ekzistensional cümlələrin struktur-semantik xüsusiyyətləri"** adlanan **ikinci fəsil** iki paraqrafdan ibarətdir. Birinci paraqrafda ekzistensional cümlələrin quruluşundan danışılır. Dilin qrammatik quruluşundan asılı olaraq ekzistensional cümlələr müxtəlif quruluşa malik olur. Müxtəlifliyə baxmayaraq onlar əsasən üç hissədən ibarət olur: mübtəda, mövcudluq bildirən feillə ifadə olunan xəbər və lokativ elementdən ibarət olur. İngilis dilində *"there"* formal sözünün işlənməsi özünü göstərir. *There is a table in the room. Otaqda stol var. В комнате есть стол.*

Azərbaycan və rus dillərindən fərqli olaraq ingilis dilində ekzistensional cümlələr geniş şəkildə mürəkkəbləşmiş formada

---

[36] Янко, Т.Е. Бытование и обладание: конструкции с глаголом "быть" / В кн.: Логический анализ языка: Языки пространств. – Москва: – 2000. – с.201-203.

[37] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, "Şərq-Qərb", – I c. – 2005. – s.175.

[38] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 1; 8; 11.

işlənir. Bu, təsadüfi deyil. *"There is a dog in the yard"* tipli cümlələr qədim ingilis dilində formalaşmış və öz quruluşunu indiyə qədər saxlamışdır.

Quruluşuna görə ekzistensional cümlələr iki qrupa bölünür: a) "there" sözü ilə başlayan cümlələr; b) yer zərfliyi ilə başlanan cümlələr: *In the next machine was a mayor.*[39] Biz öz tədqiqatımızda R.Kverk və digər dilçilərin söylədikləri fikrə tərəfdar çıxaraq həmin qəbildən olan cümlələri ekzistensional cümlələrin digər bir növü kimi hesab edirik (Existential sentences with initial adjuncts).[40]

R.Kverk və digər müəlliflər qeyd edirlər ki, xüsusən mövcudluq bildirən mübtədalar müəyyənlik bildirdikdə *there* sözünün buraxılması meyli tədricən yüksəlir.[41] Dil faktları həqiqətən söylənən bu fikrin reallığı düzgün əks etdirdiyini göstərir. Məsələn, *On the other side was the sea.*[42]

*There is a dog in the yard* tipli cümlələrdə inversiya hadisəsinin baş verib-verməməsi barədə ingilis dilçiliyində bir-birinin ziddinə olan iki fikir mövcuddur. Biz öz tədqiqatımızın materiallarına əsaslanaraq belə qənaətə gəlirik ki, ekzistensional cümlələr nəqli cümlələrin digər növlərindən həm mənasına, həm də quruluşuna görə əsaslı surətdə fərqlənir. Onlara xas olan yeganə söz sırası belədir: xəbər + mübtəda. Bu sahəyə dair aparılan xüsusi tədqiqatlar da qeyd edilir ki, həmin tip cümlələrdə inversiya hadisəsi baş vermir.[43]

Fəslin ikinci paraqrafında *müxtəlifsistemli dillərdə mövcudluq bildirən cümlələrin semantik xüsusiyyətlərindən* danışılır. Bizi əhatə edən canlı və cansız varlıqlar şüurumuzdan asılı olmayaraq daima dəyişir. Elə əşyalar var ki, onlar öz yerini dəyişmədən və dəyişməsi

---

[39] Hemingway, E. Selected stories. / E.Hemingway. – Moscow: Progress publishing House, – 1971. – p.84.

[40] Quirk, R., Greenbaum S., Leech G., Svartvik J. Comprehensive Grammar of the English Grammar / Index by D/Crystal. – London and N.Y.: Longman, – 1985. – p.1409.

[41] Yenə orada, – s.1410.

[42] Hemingway, E. Selected stories. / E.Hemingway. – Moscow: Progress publishing House, – 1971. – p.177

[43] Колпакова, Н.П. Инверсия в современном английском языке // Ленинградский государственный педагогический институт им. А.И.Герцена. Ученые записки. Факультет английского языка, – 1958. Том 157, – с.42

də mümkün olmayaraq uzun müddət bir yerdə öz mövcudluğunu saxlayır. Və yaxud elə əşyalar da var ki, onların bir yerdə mövcudluğu qısa bir müddətdə baş verir. Məhz bunun nəticəsidir ki, dilçilikdə mövcudluğun zaman kəsiyində hansı mərhələdə baş vermə hallarını aşağıdakı şəkildə göstərirlər:[44]

1. Mövcudluğun ilkin vəziyyəti: *There was big bump (zərbə) coming up.*[45]

2. Meydana gəlmə, peyda olma: *There came a knock at the door.*[46]

Qeyd etmək istərdik ki, mövcudluğun üçüncü və dördüncü mənaları arasında fərq qoymaq, onları bir-birindən fərqləndirmək bir çox hallarda mümkün deyil.

3. Mövcudluğun həyata keçməsi: *"There's much to be done", he said.*[47]

4. Mövcud olma. Mövcud olma mənası ekzistensional cümlələrin əsasını təşkil: *There were big palms and green benches in the public garden.*[48]

5. Mövcudluğun aradan çıxması (yox olması): *There is nothing that Art cannot express.*[49]

Lokallaşma, zaman və məkan anlayışları dilçilərin diqqətini cəlb edir. Məkan anlayışının dərk edilməsi insanın dünyanı dərk etməsinin əsas əlamətlərindən biridir.

Y.S.Kubryakova da təxminən eyni mövqedən çıxış edərək qeyd edir ki, dildə məkan anlayışının formalaşmasında sözönləri və digər vasitələr mühüm rol oynayır.[50]

---

[44] Слово и грамматические законы языка. Глагол / Русские бытийные глаголы и их субъекты. – Москва: "Наука", – 1989. – с.8-9.

[45] Hemingway, E. Selected stories. / E.Hemingway. – Moscow: Progress publishing House, – 1971. – p.31.

[46] Wilde, O. The picture of Dorian Grey. / O.Wilde. – Kiev: Dnipro Publisher, – 1978. – p.33

[47] Hemingway, E. Selected stories. / E.Hemingway. – Moscow: Progress publishing House, – 1971. – p.271.

[48] Yenə orada, – s.159.

[49] Wilde, O. The picture of Dorian Grey. / O.Wilde. – Kiev: Dnipro Publisher, – 1978. – p.16.

[50] Кубрякова, Е.С. О понятиях места, предмета и пространства / В кн.: Логический анализ языка: Языки пространств. – Москва: – 2000. – с.84.

N.N.Boldıryev isə zaman və məkan əlaqəsinin formalaşmasında bilavasitə danışan və dinləyənin konkret nitq situasiyasından çıxış etmələrini ön plana çəkir.[51]

Məkan anlayışını ilk növbədə insanın özündə axtarmaq lazımdır. Təsadüfi deyil ki, dilçilik ədəbiyyatında məkan anlayışının bu növü bilavasitə insanın özü ilə əlaqədar olan mövcudluq sahəsi adlandırılır.[52]

*There was pity in her eyes that became laughter on her lips.*[53]

Ekzistensional cümlələrin digər bir növünü də sahiblik, mənsubluq bildirən cümlələr təşkil edir. V.Q.Qak qeyd edir ki, *Я имею ← У меня (-при мне) есть* tipli mənsubiyyət birləşməsi tarixən formalaşan cümlə tipləridir.[54] İngilis dilində mənsubluq *to have* feili, Azərbaycan dilində isə *var* sözü vasitəsilə öz ifadəsini tapır. Dil faktlarına müraciət edək: *He had a bag in his hand.*[55]

Aparılan müşahidələrdən aydın olur ki, mənsubluq bildirən cümlələr əsasən lokalizatorsuz işlənir. Lokalizator implisit yolla təsəvvür edilir.

*1. He has lots of money.*[56]

*2. Atamın vəkilinin bir oğlu var idi.*[57]

*3. У этой женщины грудной младенец.*[58]

Ekzistensional və lokativ cümlələrin semantikasının arasında

---

[51] Болдырев, Н.Н. Отражение пространства деятеля и пространства наблюдателя в высказывании / В кн.: Логический анализ языка: Языки пространств. – Москва: – 2000. – с.213.

[52] Арутюнова, Н.Д. Предложение и его смысл. Логико-семантические проблемы / Н.Д.Арутюнова. – Москва: Изд-во “Наука” – 1976. – с.234.

[53] Wilde, O. The picture of Dorian Grey. / O.Wilde. – Kiev: Dnipro Publisher, – 1978. – p.71.

[54] Гак, В.Г. Пространство вне пространства / В кн.: Логический анализ языка: Языки пространств. – Москва: – 2000. – с.133.

[55] Wilde, O. The picture of Dorian Grey. / O.Wilde. – Kiev: Dnipro Publisher, – 1978. – p.145.

[56] Yenə orada, – s.145

[57] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, “Şərq-Qərb”, – I c. – 2005. – s.74.

[58] Чехов А.П. Избранное. Рассказы, повести, пьесы. / А.П.Чехов. – Симферополь: Из-во «Таврия», – 1977. – с.74.

mövcud olan fərqlər haqqında müxtəlif fikirlər söylənir[59] Söylənən fikirlər mahiyyətcə bir-birindən o qədər də fərqlənmir. Burada əsas fərq ondan ibarətdir ki, eyni nitq situasiyasına koqnitiv yanaşma müxtəlifdir.

*1. There is a dog in the yard. – Həyətdə bir it var. Во дворе собака.*

*2. The dog is in the yard. – İt həyətdədir. Собака во дворе.*

Mövcudluq bildirən cümlədə mübtədanın işlənməsi heç bir presupozisiyaya əsaslanmır, lakin lokativ cümlədə işlənən mübtəda presupozisiyaya əsaslanır.

Ekzistensional cümlələrin semantikasından danışarkən iki mühüm cəhəti qeyd etmək lazımdır:

1) mövcudluq geniş mənada hər hansı bir əşyanın real həyatda olmasını, mövcudluğunu göstərir: *There is a bear in the forest→A bear exists in the forest.*

2) mövcudluq sözün dar mənasında hər hansı bir əşyanın konkret məkanda *peyda olmasını, baş verməsini (to occur)* göstərir. Məsələn, götürək belə bir situasiyanı. *Kənddə ayı var (There is a bear in the village)*. Burada koqnitiv yanaşmadan aydın hiss olunur ki, ayının kənddə mövcud olması bu və ya digər hadisənin təsiri nəticəsində baş verir. Təbiidir ki, hər hansı bir ayının müxtəlif məqsədlərlə kənddə peyda olması təsadüfi xarakter daşıyır. Məhz buna görə də ayının daimi olaraq kənddə mövcud olması *(A bear exists in village)* fikri reallığı düzgün əks etdirmir.

İkinci fəsildə əldə olunan müddəalar müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır.[60]

---

[59] Арутюнова, Н.Д. Предложение и его смысл. Логико-семантические проблемы / Н.Д.Арутюнова. – Москва: Изд-во “Наука” – 1976. – с.214; Цуцаева, Х.Д. Коммуникативно-синтаксическая организация инвертированных экзистенциальных предложения в современном английском языке: / Автореф. дисс. канд. филол. наук/ – Пятигорск, 1990. – с.9; Paducheva, E.V. Locative and existential sentences. Locative and existential meaning of the Russian byt. people.umass.edu, – p.2; Борщев, В.Б., Парти Б.О. Бытийные и локативные предложения – что их различает? Тема-рематическая структура или диатеза. // Тезисы семинара ИПИ РАН, – Москва, 2007, – с.7.

[60] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 5; 6.

**“Ekzistensional cümlələrin mətnyaratma imkanları”** adlanan **üçüncü fəsil** dörd paraqrafdan ibarətdir. Birinci paraqrafda *nominasiya və mətnin formalaşmasından* danışılır. Danışığın əsas məqsədini danışanın öz təcrübəsi əsasında ona məlum olan biliklərə əsaslanaraq mövcud reallıq haqqında informasiyanı ötürmək təşkil edir. Nominasiya sintaksisin bir sahəsi kimi müəyyən bir nitq situasiyasının dildə əks olunması yollarını öyrənir.

V.Q.Qak nominasiya hadisəsinin necə reallaşdığını aşağıdakı kimi göstərir. Nitq aktında subyekt (danışan) hər hansı bir əşyanı, hadisəni özü üçün yox, həmsöhbəti üçün adlandırır. Beləliklə, nitq prosesində sosial faktor özünü göstərir. Həmsöhbətlər arasında məqsəddən asılı olaraq informasiya mübadiləsi baş verir. Bunun nəticəsi olaraq müəyyən nitq situasiyasında danışan və dinləyən faktoru qaçılmaz olur. Danışan dinləyənin məlumatına əsaslanaraq bu və ya digər əşyanı adlandırır. Bu zaman danışan həmin nitq situasiyasına müvafiq olaraq müxtəlif dil vahidlərindən istifadə edir.[61] Nominasiya aktının əsas komponentləri belədir: adlandıran subyekt (nominator), adlanan (nominant), adlanan obyekt (nominat), dinləyən (və ünsiyyət şəraiti).

Obyekti danışan seçir, lakin onun seçimi yalnız öz arzusundan asılı deyil. Bu, eyni zamanda subyektin dinləyənə münasibətindən, nitq aktının ümumi şəraitindən, həmçinin dinləyənin həmin obyektə münasibətindən asılıdır.

Nominasiyaları iki qrupa ayırmaq olar*: a) nominasiyanın müstəqil forması (автономная номинация); b) qeyri-müstəqil nominasiya (неавтономная номинация).* Bu təsnifat bizim tədqiqatımız üçün çox önəmlidir.

*Nominasiyanın müstəqil forması* söyləmdə digər nominasiyalardan asılı deyil. Əsas məqsəd ondan ibarətdir ki, ilkin nominasiya dinləyən üçün aydın olsun, ona görə ki, ilkin nominasiya kontekstə əsaslanmır. Danışan, *bir adam var idi, bir dəfə, keçmiş zamanlarda, haradasa* və s. bu kimi başlanğıc sözlərdən istifadə edir.

*Nominasiyanın qeyri-müstəqil forması* və yaxud təkrar nominasiya, adından göründüyü kimi, mətndə əvvəlki adlandırmanın

[61] Гак, В.Г. К типологии лингвистических номинаций / В кн.: Языковая номинация (Общие вопросы). – Москва: Изд-во “Наука”, – 1977. – с.241.

müxtəlif variantları şəklində təzahür edir. Təkrar nominasiya müxtəlif formalarda baş verir.

Nominasiya hadisəsi bilavasitə sintaktik semantikanın daha dərindən öyrənilməsinə xidmət edir. Sintaktik semantika bütöv cümlənin və yaxud mətnin mənasını (смысл) quruluşunu öyrənir. Eyni zamanda sintaktik semantika dünya haqqında biliklərin insan şüurunda necə formalaşması hallarını da göstərir.[62]

Sintaktik semantikadan danışarkən istər-istəməz maddi varlıq, hadisələr və onların arasında mövcud olan əlaqələrin ifadə olunmasında daha mürəkkəb dil vahidlərindən istifadə edilir. Beləliklə, biz cümlədən həm ifadə etdiyi məna baxımından, həm də quruluşuna görə daha mürəkkəb olan mətn səviyyəsi ilə rastlaşırıq. Mətn səviyyəsində olan nominasiyalar digər nominasiyalardan əsaslı surətdə fərqlənir. Burada ayrı-ayrı hadisələrlə yanaşı, müxtəlif situasiyalar arasında baş verənlər də öz ifadəsini tapır. Nominallaşmanın bir semantik sahədən digərinə keçmə yollarının araşdırılması həm idrak prosesi, həm də koqnitiv dilçiliyin öyrənilməsinə geniş imkanlar yaradır. Deməli, nominasiya sintaksisin bir sahəsi kimi müəyyən bir nitq situasiyasının dildə əks olunması yollarını öyrənir.

Fəslin ikinci paraqrafında *mətn və onun formalaşmasında praqmatik* faktorların rolundan danışılır. Keçən əsrin 50-70-ci illərindən başlayaraq mətn və onun kateqoriyalarına dair müxtəlifsistemli dillərin materialları əsasında tədqiqatlar aparılmışdır.[63]

Mətndə ötürülən yeni informasiya növbəti cümlə vasitəsilə konkretləşir. Bu mətndə antesedent onun korrelyatı olan eyni ismin

---

[62] Москальская, О.И. Вопросы синтаксической семантики // – Вопросы языкознания, – 1977. №2, – с.43.

[63] Harris, Z.S. Discourse Analysis // Z.S.Harris. – Language. Vol.8, – 1952; Поспелов, Н.С. Сложное синтаксическое целое и основные особенности его структуры // – Доклады и сообщения института русского языкап, вып.2. Изд-во Академии Наук СССР – Москва-Ленинград: – 1948; Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. – Bakı: Maarif, – 1998; Abdullayev, Ə.Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə.Ə.Abdullayev. – Bakı: "Zərdabi LTD" MMC, – 2011; Məmmədov, A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi (müqayisəli təhlil təcrübəsi) / A.Y.Məmmədov. – Bakı: Elm, – 2001.

təkrarı vasitəsilə aydınlaşır. *...Bu şəhərdə də "bir lotu" vardı. "Bu lotunun" "bir çəkməsi" vardı, "bunu" gətirdi verdi pinəçiyə.*[64]

Bu mürəkkəb mətndə ötürülən yeni informasiya silsilə şəkildə bir cümlədən digərinə keçir və nəhayət son cümlədə açıqlanır. İlk olaraq N.S.Pospelov "Mürəkkəb sintaktik bütöv" anlayışından istifadə edir.[65] Ötürülən yeni informasiya mütləq köhnə informasiya ilə əvəzlənir, əks təqdirdə danışan və dinləyən arasında ötürülən informasiya anlaşılmaz olardı.

Mətndə cümlələrin sıralanması aşağıdakı praqmatik faktorlara əsaslanır: 1. İnformasiyanın bölüşdürülməsi; 2. Nitq aktlarının sıralanması; 3. Fokus və perspektiv; 4. Hərəkətin baş verdiyi məkanın və təqdim edilən mövzunun dəyişməsi; 5. Yeni referentlərin daxil edilməsi; 6. Dialoqda danışan və dinləyənin yerini dəyişməsi.[66]

Qeyd edilən praqmatik faktorlar bu və ya digər şəkildə hər hansı bir mətnin (nitq aktının) formalaşmasında qarşılıqlı olaraq iştirak edir. Praqmatika ilk növbədə ünsiyyətin əsasını təşkil edən danışan və dinləyən arasındakı münasibətlərin necə qurulduğunu, hansı faktorlara əsaslandığını, ayrı-ayrı cümlələrin ardıcıl şəkildə necə bir-biri ilə birləşməsini və s. bu kimi halların necə formalaşdığını öyrənir.

F.Veysəlli haqlı olaraq belə qənaətə gəlir ki, linqvistik praqmatika çox mürəkkəb xüsusiyyətlərə malikdir. Praqmatika kontekstual mənanı öyrənərək, deyilən (yazılan, oxunulan, eşidilən) söyləmdən ən çox məna çıxartmaq yollarını araşdırır. Linqvistik praqmatikanın maraq dairəsi kifayət qədər genişdir.[67] Bu da təbiidir. Dil daşıyıcısı olan insan ünsiyyətin formalaşmasında əsas amillərdən biri kimi çıxış edir. Məhz buna görə də praqmatika dilin bütün yaruslarında özünü göstərir.

---

[64] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, "Şərq-Qərb", – I c. – 2005. – s.246.

[65] Поспелов, Н.С. Сложное синтаксическое целое и основные особенности его структуры // – Москва-Ленинград: Изд-во Академии Наук СССР, Доклады и сообщения института русского языка,– 1948. вып.2. – с.68.

[66] Т.ван Дейк. Вопросы прагматики текста / В кн.: Новое в зарубежной лингвистике, Лингвистика текста, – Москва: "Прогресс", – 1978. вып. VIII, – с.279.

[67] Veysəlli, F.Y. Semiotika. Studia Philologica IV / F.Y.Veysəlli. – Bakı: Mütərcim, – 2010. – s.323.

Nitq aktının formalaşmasında informasiyanın düzgün bölüşdürülməsi mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə qeyd etmək istərdik ki, hər hansı bir mətndə "köhnə-yeni" oppozisiyasının bir-birini tamamlaması ünsiyyətin baş tutması üçün çox vacibdir, əks təqdirdə ilkin ötürülən informasiya dinləyən (oxuyan) tərəfindən anlaşılmaz olar. Söylənən fikri ekzistensional cümlə timsalında nəzərə çatdıraq. *Sandronun böyrəyində kiçik bir daş var imiş. Onu da işıq ilə əritdilər*.[68]

Ünsiyyət prosesində nitq aktlarının sıralanması praqmatik faktorlardan biri kimi informasiyanın ötürülməsində müəyyən rol oynayır. Nitq aktının sıralanması mürəkkəb sintaktik bütövdə vahid prinsipə əsaslanır, yəni orada nitq aktları birincidən asılı olaraq ötürüləcək informasiyanın məqsədinə uyğun şəkildə sıralanır.

Mətnin formalaşmasında fokus mühüm amillərdən biri kimi çıxış edir. Fokusda olan obyektlərdən seçim danışan tərəfindən şüurlu olaraq aparılır. Bu ondan irəli gəlir ki, ilk olaraq danışan semantik strukturu müəyyənləşdirir. Eyni zamanda semantik struktur nəyin baş verəcəyini planlaşdırır. Dinləyənin fon biliyindən asılı olaraq bu və ya digər lazım olan informasiya ötürülür.

Seçim ilk növbədə referentin nədən ibarət olmasından asılıdır. Seçim aşağıdakı prinsiplərə cavab verməlidir: *a) haqqında danışılan obyekt söhbətin əsas mövzusunu təşkil etməlidir (topic of conversation); b) haqqında danışılan obyekt ayrı işlənən cümlənin məntiqi subyekti və yaxud teması kimi çıxış edir.*

Mətnin praqmatikasında "perspektiv" anlayışı da çox mühüm əhəmiyyət kəsb edir. Real varlığın dil vasitəsilə ardıcıl olaraq ifadə olunmasında danışan dinləyənin fon biliklərinə əsaslanaraq öz nitqini elə qurmağa çalışır ki, dinləyən onu asanlıqla başa düşə bilsin.

Mətnin formalaşmasında mühüm rol oynayan praqmatik faktorlardan biri də mətnə yeni referentlərin daxil edilməsidir. Bu ona görə vacibdir ki, təkrar referentlər o qədər də cəlbedici deyil. Hər bir yeni referent daha çox dinləyənin (oxuyanın) diqqətini cəlb edir.

Eyni zamanda qeyd etmək istərdik ki, praqmatik faktorlar daha geniş sahələri əhatə edir. İlk növbədə buraya deyksis, presupozisiya,

[68] Çəmənzəminli, Y.V. Əsərləri: [Üç cilddə]. / Y.V.Çəmənzəminli. – Bakı: – "Avrasiya press", – I c. – 2005. – s.284.

anafora, katafora kimi hadisələri daxil etmək olar. Bunların hər biri mətnin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, kommunikasiya ötürülən informasiyanın başlanmasından və dinləyənin ona cavabından ibarət olan beşmərhələli mürəkkəb bir prosesdir.[69]

Fəslin üçüncü paraqrafında *mətn və ekzistensional cümlələrin qarşılıqlı əlaqəsindən* danışılır.

Mətnin başlanğıc cümlələri kimi əsasən ekzistensional cümlələrdən istifadə edilir. Bir qayda olaraq ekzistensional cümlələr danışana məlum, dinləyənə isə məlum olmayan informasiyanı ötürməyə xidmət edir. Dinləyən üçün təqdim edilən informasiyanın dəqiqləşməsi üçün növbəti cümlədə və yaxın cümlələrdə dinləyənin başa düşəcəyi tərzdə məlumat verilir. Beləliklə, həmin mətn parçasında müəyyən bir informasiya formalaşmış olur.

Mətnin başlanğıc cümlələrindən danışarkən zaman və yer zərfliklərı ilə başlayan cümlələr üzərində xüsusilə dayanmaq lazımdır. Bu qəbildən olan cümlələrdə ötürülən informasiya hər hansı bir hərəkətin müəyyən zaman və məkan baxımından başlanğıcını göstərir. Xüsusən, onlar bədii ədəbiyyatda bu və ya digər hadisənin təsviri zamanı geniş şəkildə işlənir. *Bir gün ilxıçılardan biri Mirzəyə xəbər gətirdi ki, Ceyhun çayından bir at çıxıb iki madyana yaxınlaşıb, sonra suya giriblər.*[70]

Başlanğıc cümlə kimi adlıq cümlələr də geniş şəkildə işlənir. Mətn adlıq cümlədən müəyyən qədər asılı olur. Maraqlıdır ki, adlıq cümlələr inkar formada işlənmir. Bizcə, bu ondan irəli gəlir ki, danışan şəxs adlıq cümləni işlətməklə bu və ya digər əşyanın mövcudluğu haqqında dinləyənə məlumat verir. *A harvard boy. Nice use of the subjunctive mood.*[71]

Başlanğıc cümlə modellərindən danışarkən aşağıdakı cümlə tiplərini xüsusilə qeyd etmək lazımdır. *"Biri var imiş, biri yox imiş, allahı var imiş, şəriki yox imiş"* kimi nağıl formula öz spesifikliyi ilə

[69] Məmmədli, N.B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. / N.B.Məmmədli. – Bakı, – 2021. – s.9

[70] Koroğlu (Paris nüsxəsi) – Bakı: "Şərq-Qərb", – 2005. – s.13.

[71] Raymond, Ch. Farewell, My Lonely. / Ch.Raymond. – Moscow, «Внешенгиа», – 1992. – c.30.

diqqəti cəlb edir. Bu qəbildən olan cümlələrin işlənmə xüsusiyyətləri S.Ə.Abdullayev tərəfindən öz izahını tapır. O, qeyd edir ki, həmin cümlələr ilk növbədə praqmatik məqsədə xidmət edir. Belə cümlələrdən sonra dinləyicinin marağı fəallaşır. O, mütləq əsil mətləbi, söhbətin nədən getdiyinin söylənməsini gözləyir.[72]

*1. Biri var idi, biri yox idi. Üç qardaş var idi.*[73]

*2. Once upon a time there were (lived) three brothers.*

*3. Жил-был старик. У него была три сына.*[74]

Ayrı-ayrı cümlələrin bir-birinə birləşməsində rema kimi işlənən sözün rolunu aydınlaşdırmaq mətn dilçiliyi üçün əsas məsələlərdən biridir. Bu baxımdan Q.A.Zolotovanın təqdim etdiyi təsnifat müəyyən maraq doğurur.

*1. Əşyanın yerini göstərən remalar.*

*2. Əşyanın xarakteristikasını göstərən remalar.*

*3. Hərəkətin dinamikasını göstərən remalar.*

*4. Əşyanın vəziyyətini göstərən remalar.*[75]

Biz öz tədqiqatımızda göstərilən təsnifatdan çıxış edərək onu ekzistensional cümlələrə şamil edirik.

*1. Əşyanın yerini göstərən remalar.*

Buradan bir az uzaqda *bir bağ var, o bağda bir nar ağacı və ağacın başında üç nar var.*[76]

*Среди леса поляна, на поляне огонь горит, в огне девица сидит, да такая красавица, что ни вздумать, ни взгадать, только в сказке сказать.*[77]

*2. Əşyanın xarakteristikasını göstərən remalar.*

İlk baxışda sadə görünməsinə baxmayaraq sifət öz çoxfunksionallığı ilə diqqəti cəlb edir. Digər funksiyaları yerinə

---

[72] Abdullayev, S.Ə. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası / S.Ə.Abdullayev. – Bakı: Maarif, – 1998. – s.86.

[73] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, "Şərq-Qərb", – I c. – 2005. – s.27.

[74] Классики и современники. Русский фольклор / – Москва: «Художественная литература», – 1986. – с.58.

[75] Золотова, Г.А. Роль ремы в организации и типологии текста / В кн.: Синтаксис текста. – Москва: Изд-во "Наука", – 1979. – с.129.

[76] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, "Şərq-Qərb", – I c. – 2005. – s.60.

[77] Классики и современники. Русский фольклор / – Москва: «Художественная литература», – 1986. – с.142.

yetirməklə yanaşı bir çox hallarda sifət semantik və praqmatik funksiyaları da yerinə yetirir.[78] Məhz bunun nəticəsidir ki, ismi birləşmələrdə sifətin işlənməsindən danışarkən onun mütləq, yaxud fakultativ işlənməsi hallarına diqqət yetirilir. İndi ekzistensional cümlələrdə sifətin rema kimi çıxış edərək isimlə mütləq işlənməsi hallarına nəzər salaq. *Qız gördü ki, düyünün içində bir göy muncux var. Muncuğu götürüb ağzına qoydu. Nə təhər oldusa, özün unudub, muncuğu uddu. Bir müddət keçəndən sonra bu qız gördü ki, hamiləd*i. *O saat başa düşdü ki, hər nə əngəl oldusa, həmən göy muncuxdan oldu*.[79]

Mətn parçasında "muncuk" ismi ilə işlənən "göy" sifətinin işlənməsi mühüm məna daşıyır. Oxucu üçün bir sirr qalır ki, göy muncuxda nə hikmət var ki, qız muncuğu udduqdan bir müddət sonra hamilə qalır, bir oğlan doğur, adını da Göy Muncux qoyurlar.

*3. Hərəkətin dinamikasını göstərən remalar.*

Bir qayda olaraq ekzistensional cümlələrdə təsriflənən feillərlə ifadə olunan mövcudluq bildirən feilləri məntiqi-vurğu ilə tələffüz edilir. Həmin feillər rema kimi çıxış edərək informasiyanın bir cümlədən digər cümləyə ötürülməsinə xidmət edir.

*Səhərə yaxın bir də gördü ki, budu yer titrədi, göy şaqqıldadı, sümsürük oynadı, təpənin dalından bir dəstə at çıxdı. Atlar gəlib çeşməyə çatdılar*.[80]

*Вдруг прилетают двенадцать голубиц; ударились о сыру землю и обернулись красными девицами, все до единой красоты несказанной.*[81]

*4. Əşyanın vəziyyətini göstərən remalar.*

Hərəkət bildirən remalardan əsaslı surətdə fərqli olaraq bu və ya digər əşyanın mövcudluğu haqqında məlumat verilir.

*Koroğlu qapı-bacanı gəzib gördü ki, qarının yaxşı bir tövləsi var. Tövlənin axuru da var idi. Koroğlu Qıratı çəkib töyləyə bağladı,*

---

[78]Вольф, Е.М. Грамматика и семантика прилагательного (на материале иберо-романских языков) / Е.М.Вольф. – Москва: Изд-во "Наука", – 1978. – с.18.

[79] Azərbaycan nağılları: [5 cilddə]. – Bakı, "Şərq-Qərb", – I c. – 2005. – s.271.

[80] Yenə orada. – s.277.

[81] Классики и современники. Русский фольклор / – Москва: «Художественная литература», – 1986. – с.280.

*sonra qarıya dedi*.[82]

*Там на синем море лежит большой камень, а под камнем спрятано подвенечное платье Василисы-царевны.*[83]

*There were a few battered chairs, a worn carpet, a bookshelf, a stand full of sticks there.*[84]

Digər mətn parçalarında olduğu kimi vəziyyət bildirən remalar da informasiyanın ötürülməsində mühüm rol oynayır. Belə cümlələrdə remalar hərəkət bildirməsə də verilən mətn parçasında növbəti cümlənin işlənməsinə zəmin yaradır. Beləliklə mətndə rema-tema qarşıdurması formalaşır.

Fəslin dördüncü paraqrafında *ekzistensional cümlələrin anaforik və kataforik funksiyalarından* danışılır.

Anafora və katafora, əsas semantik kateqoriyalar kimi mətnin formalaşmasında mühüm rol oynayır. Anafora nitq aktında ilkin sözün təkrarı deməkdir. Katafora isə mənası özündən sonra işlənən sözlərlə mətnin hissələrini birləşdirmək məqsədilə işlədilir. Anaforada ilkin sözdən sonra işlənən dil vahidləri həmin sözün təkrarı və yaxud bu və ya digər baxımdan onunla mənaca yaxın olan sözlərdən ibarətdir. Hər bir halda mətni əlaqə geriyə – ilk adlanan sözün mənasının açılmasına istiqamətlənir. Kataforada isə ilk olaraq adı çəkilən dil vahidi sonrakılarla əlaqələndirilir – yəni mətni əlaqə irəliyə istiqamətləndirilir.

Anaforik əlaqə iki element vasitəsilə reallaşır. Birinci element antesedent, ikinci element isə həmin sözün korrelyatından ibarətdir. Antesedent təyin olunan söz, yəni ilk adlanan element, korrelyat isə həmin sözlə bu və ya digər cəhətdən mənaca bağlı olan elementdən (elementlərdən) ibarətdir.

Dil materiallarının təhlili göstərir ki, bir çox hallarda antesedent və korrelyat olan sözlər hər üç dildə eyni ümumi isimlərlə ifadə olunur.

*1. There was a sixpence on the shelf in the other room… She*

[82] Koroğlu (Paris nüsxəsi) – Bakı: "Şərq-Qərb", – 2005. – s.57.

[83] Классики и современники. Русский фольклор / – Москва: «Художественная литература», – 1986. – с.130.

[84] Beaton, M.C. Death of a nag. / – M.C.Beaton. – New-York: Mysterious press, – 1995. – p.96.

*looked on the shelf but the sixpence wasn't there Mabel must have taken it.*[85]

*2. Urmiyalı tacirin evində bir mücrü vardı. Murad yeriyib yük yerindən, farmaşdan ipəyə bükülü mücrünü götürmüşdü.*[86]

*3. В некотором царстве жил богатый купец; номер купец и оставил трех сыновей на возрасте.*[87]

Anaforik əlaqədə antesedentin korrelyatı kimi müxtəlif əvəzliklərin işlənməsində daha çox təsadüf edilir. Bu baxımdan üçüncü şəxs əvəzliyinin tək və cəm formalarını və işarə əvəzliklərini qeyd etmək olar.

Anaforik əlaqədə elə hallar olur ki, antesedent və onun korrelyatı arasında əlaqə müəyyən məna bağlılığı əsasında baş verir.

Antesedentin korrelyatı eyni sözün təkrarı ilə yox, lakin ona yaxın mənalı sözlərlə öz ifadəsini tapır. Burada assosiasiya hadisəsi baş verir, yəni dil vahidlərinin formal və məntiqi-semantik əlamətləri sayəsində bir-biri ilə leksik-semantik cəhətdən əlaqəli olan birləşmələr formalaşır. Bu zaman yaranan assosiasiya şüurda ayrı-ayrı təsəvvürlər arasındakı əlaqəni göstərir. Hər bir halda antesedentlə onun korrelyatı arasında baş tutan əlaqə danışan və dinləyənin fon biliklərinə əsaslanır.

Antesedent və onun korrelyatı arasında mövcud olan əlaqəni aşağıdakı kimi təsəvvür etmək olar: *an old lady-this old woman – bir qoca xanım-bu qoca qadın; holes-buildings – daxma-bina; room-house – otaq-ev; name-man – ad-kişi; body-face – bədən-sifət; bir bağ-alma ağacı – a garden-an apple tree* və s. bu kimiləri.

Bir çox hallarda antesedentin korrelyatı kimi ayrı-ayrı sözlər yox, bütöv cümlə çıxış edir. *Koroğlunun bir məqsədi var idi, mərdin mərdliyini, namərdin namərdliyini olduğu kimi üzünə deyərdi.*[88]

Kataforik əlaqədə ilk olaraq adı çəkilən dil vahidi sonrakılarla əlaqələndirilir – yəni mətni əlaqə anaforadan fərqli olaraq geriyə yox,

---

[85] Abrahams, P. The path of thunder. / P.Abrahams. – Moscow: Higher School Publishing House, – 1971. – p.69.

[86] Kərimzadə, F. Xudafərin körpüsü (4-cü nəşr). / F.Kərimzadə. – Bakı: "Kitab klubu", – 2015. – s.141.

[87] Классики и современники. Русский фольклор / – Москва: «Художественная литература», – 1986. – с.162.

[88] Koroğlu (Paris nüsxəsi) – Bakı: "Şərq-Qərb", – 2005. – s.109.

irəliyə istiqamətləndirilir. Dilçilik ədəbiyyatında belə bir fikir söylənir ki, kataforik əlaqə əsasən bir cümlə daxilində baş verir.[89]

Bir cümlə daxilində ən çox işlənən kataforik əlaqəyə ingilis dilində təyin budaq cümlələri daxil edilir. Belə mürəkkəb cümlələrdə korrelyat söz kimi mücərrəd isimlər işlənir: *He realized something else too, namely the fact that he was still wearing his old brown slippers.*

Söylənən fikirdən aydın olur ki, kataforik əlaqə əsasən bir cümlə daxilində baş verir. Bu vəziyyət özünü əsasən *"There is/are"* tipli cümlələrdə göstərir:

1. Təyin budaq cümlələrində.

*There was something about Dorian that charmed everybody.*[90] *– Dorianda hər kəsi heyran edən nə isə bir şey var idi.*

Təqdim edilən cümlədə kataforik əlaqə sayəsində mövcudluq bildirən əşya özündən sonra gələn təyin budaq cümləsi ilə aydınlaşır, yəni kontaminasiya hadisəsi baş verir.

2. Sadə ekzistensional cümlələrdə.

*There was a man sitting by the fire*[91] *→ There was a man who was sitting by the fire. – Ocağın qırağında oturan bir kişi var idi.*

*There was a cry heard, and a crash*[92] *→ There was a cry and a crash which were heard. – Eşidilən səs-küy və şaqqıltı var idi.*

Hər bir halda kataforik əlaqə, yəni əşyanın mövcudluğu və onun hansı məqsədlə işlənməsi bir cümlə daxilində reallaşır.

3. Məsdər cümləli ekzistensional cümlələr (Existential sentences with infinitive clauses). Bu qəbildən olan cümlələr təyin budaq cümləli ekzistensional cümlələrin bir növü hesab edilir.

*There is nothing more to say.*[93] *– Artıq deyiləsi heç nə yox idi.*

Yuxarıda aparılan təhlildən bir daha aydın olur ki, ekzistensional cümlələr çox mürəkkəb bir xüsusiyyətə malikdir.

---

[89] Yule, G. Pragmatics / G.Yule. – Oxford University Press, – 1996. – p.23.

[90] Wilde, O. The picture of Dorian Grey. / O.Wilde. – Kiev: Dnipro Publisher, – 1978. – p.74.

[91] Hemingway, E. Selected stories. / E.Hemingway. – Moscow: Progress publishing House, – 1971. – p.54.

[92] Wilde, O. The picture of Dorian Grey. / O.Wilde. – Kiev: Dnipro Publisher, – 1978. – p.76.

[93] Yenə orada, – s.110.

Onlar bilavasitə anaforik və kataforik əlaqələrin formalaşmasında mühüm rol oynayır.

Üçüncü fəsildə əldə olunan müddəalar müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır.[94]

Qeyd edilənləri ümumiləşdirərək aşağıdakı **nəticələrə** gəlmək olar:

1. Ekzistensional cümlələr müstəqil cümlə tipi kimi kommunikativ-praqmatik xüsusiyyətlərə malik olan və struktur-semantik əlamətləri özündə əks etdirən ayrıca bir qrup təşkil edir. Onlar məntiqi mövcudluq hökmünün dildə ifadəsi kimi çıxış edir. Mövcudluq semantik kateqoriya kimi hər hansı bir əşyanın varlığını və yaxud yoxluğunu göstərir.

2. Ekzistensional cümlələrdə mübtəda predikatla əlaqədə olan və mövcudluq bildirən əşya ilə ifadə olunur.

3. Ekzistensional cümlələr kommunikativ baxımdan hərəkət, proses, hadisə ifadə edən cümlələrdən əsaslı surətdə fərqlənir.

4. Ekzistensional cümlələrin quruluşu bilavasitə təsvir edilən situasiyanın quruluşuna uyğun gəlir. Belə ki, obyekt və predikat real həqiqətin nominallaşmasını həyata keçirir. Konkret olaraq mövcudluq semantikası müxtəlif predikatlarla və yaxud mövcudluq mənası olan feillərlə öz təzahürünü tapır.

5. Ekzistensional cümlələrin lokalizatoru iki qrupa bölünür; a) konkret məkan anlayışı göstərən lokalizator. Bu qəbildən olan lokalizatorlar öz növbəsində iki cür ola bilər: şüurumuzdan asılı olmayan məkanlar və mənsubluq əlaqəsi göstərən ayrı-ayrı şəxslər; b) zaman anlayışı göstərən lokalizator.

6. Struktur baxımından ekzistensional cümlələr üç qrupa bölünür: a) əsl ekzistensional cümlələr; b) "çılpaq" ekzistensional cümlələr; c) müxtəlif predikatlarla öz ifadəsini tapan mürəkkəbləşmiş ekzistensional cümlələr.

7. Mövcudluq anlayışı iki mənada işlənir: a) hər hansı bir əşyanın ümumiyyətlə mövcudluğu; b) hər hansı bir əşyanın subyektiv mövcudluğu. Şüurumuzdan asılı olmayaraq mövcud olan əşyalar müxtəlif siniflərə aid olur. lakin subyektiv mövcudluqda

[94] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 7; 9; 10; 12; 13.

haqqında danışılan obyekt konkret zaman-məkan kəsiyində mövcud olur (peyda olur).

8. İngilis dilində ekzistensional cümlələr iki formada işlənir: a) *"there"* sözü ilə başlanan cümlələr; b) zərfliklərlə başlayan cümlələr (Existential sentences with initial adjuncts). Azərbaycan dilində digər cümlə tiplərində olduğu kimi ekzistensional cümlələrdə də xəbər hər bir halda cümlənin sonunda işlənir. Bu baxımdan rus dili ilə ingilis dili arasında tipoloji oxşarlıq var. Bu da təbiidir, hər iki dil eyni dil ailəsinə mənsubdur. Hər üç dildə ekzistensional cümlələrin yer və zaman zərfliyi ilə başlaması tipoloji oxşarlıq kimi göstərilə bilər.

9. Mövcudluq bildirən cümlələr öz semantikasına görə lokativ cümlələrdən fərqlənir. Mövcudluq bildirən cümlədə mübtədanın işlənməsi heç bir presupozisiyaya əsaslanmır, lakin lokativ cümlədə işlənən mübtəda presupozisiyaya əsaslanır. Mövcudluq bildirən cümlənin mübtədası bir çox hallarda mətnin davamı üçün zəmin yaradan bir vasitə kimi çıxış edir. Mövcudluq bildirən cümlələrin əsas məqsədi insanların dünya haqqında aydın olmayan biliklərinin aradan qaldırılmasına xidmət etməkdir.

10. Ekzistensional cümlələr geniş mətnyaratma imkanlarına malikdir. Onların mətnyaratma imkanları kortəbii şəkildə baş vermir. Mətndə cümlələrin sıralanması müəyyən praqmatik faktorlara əsaslanır. Praqmatika ilk növbədə ünsiyyətin əsasını təşkil edən danışan və dinləyən arasındakı münasibətlərin necə qurulduğunu, hansı faktorlara əsaslandığını, ayrı-ayrı cümlələrin ardıcıl şəkildə necə bir-biri ilə birləşməsini və s. bu kimi halların necə formalaşdığını öyrənir. Praqmatikanı təcrid olunmuş şəkildə təsəvvür etmək olmaz. Praqmatikaya sintaksis, semantika və siqmatika daxildir. Dil daşıyıcısı olan insan ünsiyyətin formalaşmasında əsas amillərdən biri kimi çıxış edir. Məhz buna görə də praqmatika dilin bütün yaruslarında özünü göstərir. Mətnin formalaşmasında praqmatik faktorlar mühüm rol oynayır.

11. Ekzistensional cümlələr ilkin müstəqil nominasiya kimi kontekstə əsaslanmır. Burada danışan şəxs və əşya haqqında verdiyi məlumat sayəsində dinləyəni həmin situasiyaya istiqamətləndirməyə çalışır. Danışan, *"bir adam", "var idi", "bir dəfə", "keçmiş zamanlarda"* və s. bu kimi sözlərdən istifadə edir. Təkrar nominasiya

vasitəsilə ötürülən yeni informasiya konkretləşir.

12. Ekzistensional cümlələr tez-tez yer və zaman zərfliklərı ilə başlayır. O fikir əsas götürülür ki, həmin zərfliklərin cümlənin əvvəlində işlənməsi inversiya hadisəsi deyil. Bu tip cümlələr ekzistensional cümlələrin xüsusi bir qrupunu təşkil edir. Həmin cümlələr mətndə rema-tema qarşıdurması yaratmaq üçün geniş şəkildə işlənir.

13. Mətnin vahidləri – anafora və katafora semantik kateqoriya kimi mətnin formalaşmasında mühüm rol oynayır. Anaforada mətni əlaqə geriyə – ilk adlanan sözün mənasının açılmasına istiqamətlənir. Kataforada isə ilk olaraq adı çəkilən dil vahidi sonrakılarla əlaqələndirilir – yəni mətni əlaqə irəliyə istiqamətləndirilir. Anaforik əlaqə iki element vasitəsilə reallaşır: birinci element-antesedent, ikinci element isə həmin sözün korrelyatı hesab edilir. Anaforik əlaqədə bir çox hallarda antesedent və onun korrelyatı eyni isimlə ifadə olunur. Digər hallarda antesedentin müxtəlif nitq hissələrinə aid olması halları baş verir. Hər bir halda antesedentlə onun korrelyatı arasında məna əlaqəsi baş verir.

14. Mətnin formalaşmasında və informasiyaların paylanmasında fokus mühüm rol oynayır. Fokus dedikdə ilk növbədə obyektin seçilməsi nəzərdə tutulur. Fokusda olan obyekt digər obyektlərdən fərqli olaraq diqqət mərkəzində olur. Mövcud obyektlərdən seçim danışan tərəfindən şüurlu olaraq aparılır. Seçim ilk növbədə referentin nədən ibarət olmasından asılıdır.

15. Semantik fokus ayrı-ayrı cümlələrin birləşməsindən ibarət olan hökmlərdir. Başqa sözlə desək, semantik fokus nəyin haqqında danışılanı bildirir. Praqmatik fokus isə ünsiyyət prosesində danışan və dinləyənin qarşılıqlı əlaqəsi sayəsində baş verir. Praqmatik fokusda hər şeydən əvvəl həyata keçirilən ünsiyyət prosesində relevant olan hökm və faktlar öz əksini tapır. Ekzistensional cümlələrdə danışan məqsəddən asılı olaraq hər hansı bir əşyanın mövcudluğu haqqında məlumat verir.

16. Mətnin praqmatikasında “perspektiv” anlayışı da çox mühüm əhəmiyyət kəsb edir. Real varlığın dil vasitəsilə ardıcıl olaraq ifadə olunmasında danışan dinləyənin fon biliklərinə əsaslanaraq öz nitqini elə qurmağa çalışır ki, dinləyən onu asanlıqla

başa düşsün. Söylənən bu fikir ekzistensional cümlələr üçün daha səciyyəvidir. Ona görə ki, hər bir halda ötürülən yeni informasiyanın aydınlaşması üçün növbəti cümləyə keçidin olması lazımdır.

17. Qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ekzistensional cümlələrin mətnyaratma imkanları çox genişdir. Əksər hallarda ekzistensional cümlələr mətnin irəliyə doğru istiqamətlənməsində mühüm rol oynayır. Onların əsas funksiyası dinləyən üçün hər hansı yeni bir informasiyanın ötürülməsidir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**


1. Ekzistensional cümlələr haqqında // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərləri, – 2017. c.2, №2, – s.84-88.
2. Tədris prosesində ekzistensional cümlələrin spesifik xüsusiyyətlərinin nəzərə alınması // "Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycanın iqtisadi inkişaf istiqamətləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: Bakı Biznes Universiteti, – 3-4 may, – 2018, s.571-573.
3. İngilis və Azərbaycan dillərində ekzistensional cümlələrə xas olan xüsusiyyətlər // "Tətbiqi dilçiliyin müasir problemləri" III Beynəlxalq elmi konfransın materialları. – Bakı: Azərbaycan Dillər Universiteti, – 25-26 oktyabr, – 2018, – s.34-35.
4. Tədris prosesində ekzistensional cümlələrin struktur xüsusiyyətlərinin izahı // "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktik konfransının materialları. – Bakı: Azərbaycan Dillər Universiteti, – 6-7 dekabr, – 2018, – s.44-45.
5. İngilis dilində mövcudluq bildirən cümlələrin quruluşu // – Bakı: "Elm və təhsil", AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. №3, – s.104-117.
6. Müxtəlifsistemli dillərdə mövcudluq bildirən cümlələrin semantik xüsusiyyətləri // – Bakı: Bakı Slavyan Universitetinin Elmi əsərləri, Dil və Ədəbiyyat seriyası, – 2019. №1, – s.104-115.
7. Nominasiya və mətnin formalaşması // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. № 1(109), – s.113-116.

8. Some features of existential sentences in languages belonging to different systems // International Journal of Advanced Research (IJAR). – May – 2019. Vol.7, Issue 05, – p.348-355.
9. Роль экзистенциальных предложений в формировании текста в разносистемных языках // European Scientific Conference. Сборник статей XVII международной научно-практической конференции. – Пенза, РФ: – 7 ноября, – 2019, – с.183-187.
10. Tədris prosesində anaforik əlaqənin rolu // Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyinə həsr olunmuş "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktik konfransı. – Bakı: Azərbaycan Dillər Universiteti, – 23 dekabr, – 2021, – s.61-62.
11. Mövcudluq bildirən cümlələrin formalaşmasında "be", "have" "olmaq" "var" feillərinin rolu // "Xarici dillərin tədrisinin aktual problemləri" Respublika elmi-praktik konfransının materialları. – Bakı: Azərbaycan Dillər Universiteti, – 23 dekabr, – 2022, – s.93-94.
12. The Use of the Existential Sentences in Text // International Journal of Social and Human Research (IJAR). – April, – 2023. Vol.06, Issue 04, – p.2482-2486.
13. The Role of Pragmatic factors in the formation of the text // Материалы Международной научно-практической конференции «Диалог языков и культур: опыт инновации, перспективы». Краснодар: Кубанский государственный университет, Филологический факультет: – 23 октября, – 2025, – с.31-35.

Dissertasiyanın müdafiəsi 15 dekabr 2026-cı il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "2" noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.06.2026

Kağız formatı: 60x84 16\[1]

Həcm: 41408 işarə

Tiraj: 100